**Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Macarıstanın Milli İqtisadiyyat Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Macarıstanın Milli İqtisadiyyat Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında 2014-cü il noyabrın 11-də Budapeşt şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Azərbaycan Respublikasının *Dövlət Turizm Agentliyi* bu Sərəncamın 1-ci hissəsində göstərilən Sazişin müddəalarının həyata keçirilməsini təmin etsin.[1]

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Macarıstan Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 dekabr 2014-cü il
966

**Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Macarıstanın Milli İqtisadiyyat Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında**

**SAZİŞ**

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Macarıstanın Milli İqtisadiyyat Nazirliyi (bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq),

iki ölkə arasında turizm sahəsində əməkdaşlığı inkişaf etdirməyi arzulayaraq, öz müvafiq potensiallarını nəzərə almaqla, turizm sahəsində fəal əməkdaşlığı təşviq etmək ehtiyacına inanaraq, aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Razılığa gələn Tərəflər hər iki ölkənin tarix və mədəniyyətlərinin qarşılıqlı öyrənilməsinin təkmilləşdirilməsi məqsədi ilə turizm sahəsində əlaqələrin inkişafına və gücləndirilməsinə xüsusi diqqət yetirirlər.

Razılığa gələn Tərəflər hər iki ölkədə turizm müəssisələri, təşkilatları, təsisatları və orqanları arasında turizm sahəsində əməkdaşlığı dəstəkləyirlər.

**Maddə 2**

Razılığa gələn Tərəflər turizm sektorunun inkişafının təşviq olunması və ekspertlər mübadiləsinin asanlaşdırılması üçün əməkdaşlığı gücləndirməyə səy göstərirlər.

**Maddə 3**

Razılığa gələn Tərəflər:

a) turizmin təşviqi üzrə fikir və təcrübə mübadiləsi aparırlar;
b) turizmin təbliği üçün nəşrlər və materiallar mübadiləsi aparırlar;
c) statistik rəqəmlər və digər turizm məsələləri ilə bağlı məlumat mübadiləsi aparırlar;
d) Razılığa gələn Tərəflərin turizm sahəsində milli qanunvericilik təcrübəsini öyrənirlər.

**Maddə 4**

Razılığa gələn Tərəflər peşəkar təlim sahəsində əməkdaşlığı təşviq edir, turizm sahəsində təhsil proqramları haqqında məlumat mübadiləsinə yardım edirlər.

**Maddə 5**

Razılığa gələn Tərəflər müvafiq qurumlar arasında turizm sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar çərçivəsində gələcək əməkdaşlığın inkişaf etdirilməsi və əldə olunan nəticələr barədə məlumat mübadiləsi üçün səy göstərirlər.

**Maddə 6**

Bu Sazişdən irəli gələn əməkdaşlığın bütün formaları Razılığa gələn Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

**Maddə 7**

Bu Sazişin icra edilməsini təmin etmək, səlahiyyətli qurumları arasında əməkdaşlığı əlaqələndirmək və birgə

layihələrin icrasının monitorinqini həyata keçirmək məqsədi ilə Razılığa gələn Tərəflər İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya çərçivəsində Turizm üzrə İşçi Qrup yarada bilərlər.

## Maddə 8

Razılığa gələn Tərəflər qarşılıqlı razılıq əsasında bu Sazişə əlavə və dəyişikliklər edə bilərlər. Belə əlavə və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan ayrıca protokollar şəklində rəsmiləşdirilir və bu Sazişin 9-cu maddəsinə uyğun olaraq qüvvəyə minir.

## Maddə 9

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Azərbaycan Tərəfinin Macarıstan Tərəfinə məlumat verdiyi yazılı bildirişin diplomatik kanallar vasitəsilə alınmasından sonra otuzuncu gün qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətində qüvvədə qalır və Razılığa gələn Tərəflərdən biri onu ləğv etmək niyyəti barədə digər Razılığa gələn Tərəfə bu müddətin bitməsinə ən azı 6 (altı) ay qalmış yazılı bildiriş göndərmədiyi təqdirdə, bu Saziş növbəti 5 (beş) illik müddətdə qüvvədə qalır.

Budapeşt şəhərində 11 noyabr 2014-cü il tarixində, Azərbaycan, macar və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının**<br>**Mədəniyyət və Turizm Nazirliyi**<br>**adından**<br>*(imza)* | **Macarıstanın**<br>**Milli İqtisadiyyat Nazirliyi**<br>**adından**<br>*(imza)* |

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 29 yanvar 2021-ci il tarixli **2464** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 30 yanvar 2021-ci il, 21, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 1, maddə 80**)

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 29 yanvar 2021-ci il tarixli **2464** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 30 yanvar 2021-ci il, 21, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 1, maddə 80**) ilə 2-ci hissəsində "**Mədəniyyət və Turizm Nazirliyi**" sözləri "**Dövlət Turizm Agentliyi**" sözləri ilə əvəz edilmişdir.